# HEYDƏR ƏLİYEV VƏ CƏNUBİ QAFQAZDA ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ

**Sevinc Rəhimova**
*0000-0001-5449-6978, AMEA, A.A.Bakıxanov adına*
*Tarix İnstitutu “Ümumi tarix” şöbəsi, a.e.i.,doss.,t.ü.f.d.*
*rehimova.74@mail.ru*

## HAYDER ALIYEV AND THE SOUTH CAUCASUS COOPERATIVE MATTERS

**Sevinj Rahimova**

**Summary**

In the difficult historical time of Azerbaijan's new independence, the return of national leader Heydar Aliyev to political power in the second half of 1993 created conditions for the approval of the idea of independent statehood. After that, practical changes were made to the course of Azerbaijan's foreign policy, taking into account modern realities and aimed at protecting the national interests of our country. Our foreign policy, carried out since this period, is connected with the name of the national leader and his activities. In this updated foreign policy line of President Heydar Aliyev, who determined the important directions of the new foreign policy course of our state on the basis of Heydar Aliyev's rich governmental experience, first of all, the implementation of a number of important and urgent tasks was set.

**Key worlds:** South Caucasus, Heydar Aliyev, regional politics, peace, conflict

## HEYDƏR ƏLİYEV VƏ CƏNUBİ QAFQAZDA ƏMƏKDAŞLIQ MƏSƏLƏLƏRİ

**Sevinc Rəhimova**

**Xülasə**

Azərbaycanın  yeni müstəqillik qazandığı mürəkkəb tarixi zamanda 1993-cü ilin ikinci yarısında Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Bu dövrdən başlayaraq həyata keçirilən xarici siyasətimiz məhz ümummilli liderin adı və onun fəaliyyəti ilə bağlıdır.

**Açar sözlər.** Cənubi Qafqaz, Heydər Əliyev, regional siyasət, sülh, münaqişə

## ГЕЙДАР АЛИЕВ И ЮЖНЫЙ КАВКАЗ: ВОПРОСЫ СОТРУДНИЧЕСТВА

**Севиндж Рахимова**

**Аннотация**

В сложное историческое время обретения Азербайджаном новой независимости возвращение общенационального лидера Гейдара Алиева к политической власти во второй половине 1993 года создало условия для утверждения идей независимой государственности. После этого в курс внешней политики Азербайджана были внесены практические изменения, учитывающие современные реалии и направленные на защиту национальных интересов нашей страны. Наша внешняя политика, проводимая с этого периода, связана с именем общенационального лидера и его деятельностью. Неоценимая работа, проделанная для достижения поставленных целей, доказала дальновидность этой политики в будущем.

**Ключевые слова:** Южный Кавказ, Гейдар Алиев, региональная политика, мир, конфликт

**Giriş.** Azərbaycan Respublikasının müstəqilliyinin ilk günündən etibarən xarici dövlətin daxili və  xarici siyasi kursu bir sıra çətinliklərlə üzləşmişdir. Regiondakı gərgin vəziyyət, Ermənistanın Azərbaycana qarşı hərbi aqressiyası, iqtisadi böhran  dövlətin çevik və çoxşaxəli siyasət yerinə yetirməsini vacib edirdi. Bu ağır vəzifə dövlətin və xalqın xilaskarı Heydər Əliyevin üzərinə düşdü.

Bu siyasətdə Cənubi Qafqaz regionu mühüm yeri tuturdu. Qafqaz mürəkkəb etnik münaqişələrin çoxluğu və miqyası baxımından da unikal coğrafi məkanlardan biridir. Belə bir şəraitdə dünyanın ən qaynar nöqtələrindən birinə çevrilən Qafqazda sülh, təhlükəsizlik, sabitlik təkcə region ölkələri üçün deyil, bütövlükdə Asiya və Avropa ölkələri üçün həyati əhəmiyyət daşıyır. Qafqazda sülhü və sabitliyi təmin etmədən Şərqlə Qərb, Cənubla Şimal arasında, həmçinin region ölkələrinin bir-biri ilə iqtisadi, siyasi və mədəni inteqrasiyasından söhbət gedə bilməz.

Ermənistanın hərbi təcavüzünə məruz qalmış Azərbaycan 20 faiz torpaqlarını itirmiş, əhalisi qaçqın düşmüşdü. I Qarabağ müharibəsi dövrünün ən mürəkkəb və həlli mümkünsüz kimi görsənən münaqişə idi. Münaqişənin sülh yolu ilə həll olunması istiqamətində əzmlə, dayanmadan fəaliyyət göstərən Ulu öndər ikitəfli və çöxtərəfli görüşlər keçirir və bu görüşlərdə məsələnin müzakirəsini daima önə çəkirdi. [3].

Qafqaz regionunun tarixinə və burada yaşayan xalqlara hörmətlə yanaşan  və bunu hər dəfə dilə gətirən Ümummilli lider Heydər Əliyev xalqlararası və dövlətlərarası münasibətlərin formalaşdırılmasının vacibliyini qeyd edirdi. Tarix böyu Azərbaycan hər zaman Cənubi Qafqazda sülhü, əmin-amanlığın  və sabitliyin tərəfdarı olmuşdur. Tarixən dözümlülük siyasəti ilə seçilən Azərbaycan müstəqillik illərində də bu siyasi kursunu davam etdirmişdir.  Ümummilli lider Heydər Əliyev fəaliyyəti nəticəsində  Azərbaycan nəinki Qafqaza, həmçinin bütün dünyada tarixən tolerantlıq ənənələri olan dövlət kimi tanıtdırmışdır. Qafqazda sülhün saxlanması üçün dünyəvilik və tolerantlığın ən vacib ünsür olduğunu qeyd edən Heydər Əliyev bu dəyərlərin qorunlması yolunda ciddi fəaliyyət görmüşdür.

1994-cü il sentyabrın 20-də Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə Azərbaycan paytaxtında ilk neft müqaviləsinin imzalanması ölkənin neft sahəsinə fəal surətdə xarici sərmayələrin cəlb edilməsi ilə yanaşı, həm də Cənubi Qafqaz regionuna maraq oyada biləcək güclü bir stimula çevrildi[2]. Bu hadisə Qafqaz və bütün Xəzəryanı regionda coğrafi - siyasi vəziyyəti kökündən dəyişdi və beynəlxalq aləmdə Azərbaycanın öz təbii ehtiyatlarından müstəqil surətdə istifadə etməyə qadir olduğunu nümayiş etdirdi. Neft sahəsində külli miqdarda sərmayə axını Azərbaycan iqtisadiyyatının inkişafı, qeyri-neft sahələrinin canlanması, yerli sahibkarların yaranması ilə yanaşı, Qafqazda iqtisadi inteqrasiyanın da dərinləşməsinə güclü təkan verdi [5, s. 3].

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev “Qafqazda sülh”, “Ümumi Qafqaz evi” ideyasının və konsepsiyasının banisidir. Heydər Əliyev Azərbaycanı nəinki Qafqaza, eləcə də bütün dünyaya tolerantlığın mövcudluğunu tarixən özündə yaşadan bir ölkə kimi tanıtdırmışdır. Heydər Əliyevin Qafqazda sülhün bərqərar olunması istiqamətində müəyyən etdiyi vəzifələr tam həyata keçirilmişdir və gələcəkdə də davam etdiriləcəkdir. [5, s. 3].

Qafqaz ölkələri arasında hərtərəfli tərəfdaşlıq əlaqələrinin inkişaf və harmonik münasibətlərin qurulmasına, separatizmin, Qafqazda regional əməkdaşlığın həyata keçirilməsinə maneə hesab olunan etnik, siyasi və dini ekstremizmdən qaynaqlanan risklərin zərərsizləşdirilməsi, regionda sülhün və sabitliyin bərqərar olması Heydər Əliyevin təşəbbüskarı olduğu  “Ümumi Qafqaz evi” ideyası əvəzolunmaz amil kimi beynəlxalq səviyyədə dəstəklənir [3, s.404]. Heydər Əliyev ATƏT-in İstanbul zirvə görüşündə (1999) “Cənubi Qafqazda sülh, təhlükəsizlik və əməkdaşlıq paktı”nın yaradılması təklifi ilə çıxış edib, bu təklif bir çox region dövlətləri tərəfindən müdafiə olunub.

Azərbaycanın regionda qonşu Gürcüstan dövləti ilə əlaqələrini xüsusi qeyd etmək lazımdır. Hər iki dövlət qarşılıqlı və regoindaxili münasibətlərdən əlavə, beynəlxalq antiterror koalisiyasənda iştirak etmiş və antiterror əməliyyatlarını dəstəkləmişdir. Region dövlətlərinin bu siyasi kursu qərb tərəfindən də yüksək qiymətləndirilmişdir. Rəsmi Vaşinqton Azərbaycan və Gürcüstanın bu tipli beynəlxalq layihələrdə iştirakını Cənubi Qafqazda və bütünlükdə regionda sülhün, təhlükəsizliyin, qlobal enerji və kommunikasiya layihələrinin təhlükəsiz şəkildə həyata keçirilməsi baxımından mühüm addım kimi qəbul edir [3, s.408].

Vətən müharibəsində Azərbaycanın qazandığı qələbə və ərazi bütövlüyünün təmin olunması nəinki Qafqazda, eləcə də bütün dünyada ədalətin zəfər çalması kimi qiymətləndirilir. Cənubi Qafqazda sülhün təmin olunması, regionun artan iqtisadi və kommunikasiya imkanlarından bərabər

şəkildə maksimum istifadəsi Azərbaycan dövlətinin siyasətini təşkil edən vacib amillərdən və məqsədlərdən biridir.

Bu gün Azərbaycan iqtisadi inkişafın artım sürətinə görə Qafqazda liderdir. Azərbaycanın sülhsevır dövlət olması Cənubi Qafqazda sülh üçün möhkəm zəmin yaradır. Gələcəkdə Cənubi Qafqaz regionunda dostluq və qardaşlıq prinsiplərnin öndə olduğu bir siyasətin qorunub saxlanılması da Azərbaycan üçün prioritet vəzifələrdən biridir. Azərbaycan Cənubi Qafqazda Rusiya ilə bərabərhüquqlu münasibətlər sistemi yaratmağa nail olmuş yeganə dövlətdir.

Dövlətimizin üzv olduğu bir sıra təşkilatların, eləcə də, tərəfdaş dövlətlər tərəfindən Vətən müharibəsinin nəticələrini alqışlayan bəyanatlar verməsi, möhtərəm Prezidentimizə təbriklər ünvanlamaları diplomatik nailiyyət kimi dəyərləndirilməlidir [1, s. 5-4]. Vətən müharibəsindən sonra regionda yaranmış reallıqlar artıq həm regiona dövləri arasında, həm də beynəlxalq aləmdə də qəbul edilir. Azərbaycan isə istər regional, istərsə də bölgədən kənardakı dövlətlərlə əməkdaşlığı genişləndirməyə çalışır.

Azərbaycan bu gün özünün iqtisadi inkişafın artım sürətinə görə Qafqaz regionunun liderdir. Azərbaycanın əldə eydiyi uğrlar nəinki Qafqaz regionunda, eləcə də qərbdə sivil, demokratik cəmiyyət quruculuğunda vacib amillərdən sayılır. Dövlətimiz beynəlxaq aləmdəki nüfuzu Qafqazda sülh üçün möhkəm zəmin yaradır. Ölkədə həyata keçirilən siyasətin kökündə biz milli-mənəvi dəyərlərə xüsusi diqqət və qayğı görürük. Bunların təməli isə ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ümummilli lider Heydər Əliyevin Azərbaycana gələn investorların bizim milli-mənəvi dəyərlərə, tariximizə, dinimizə, dilimizə, etik normalara necə riayət etməsi məsələsinə həssaslıqla yanaşması tədqiqatçının əsərində çox qabarıq şəkildə öz əksini tapmışdır.

Qloballaşan və inkişaf edən dünyada etnik münaqişələrin, terrorun, separatçı fəaliyyətin, artımı nəzərə çarpır. Dünya dövlətlərinin daima diqqətini cəlb edən strateji baxımdan ən əhəmiyyətli geosiyasi məkanlarından olan Cənubi Qafqazda sülhün qorunması, sülh prosesinin hər vasitə ilə inkişaf etdirilməsi prosesi təhlükəsizliyin, ölkələrin və dövlətlərin birgəyaşayışı, əmin-amanlığı, qarşılıqlı əməkdaşlığın iqtisadi və mədəni inteqrasiyası üçün böyük imkanların açılması Ulu öndər Heydər Əliyevin və onun bu istiqamətdə gördüyü işlərin tarixi tövhəsidir.

**İstifədə olunmuş ədəbiyyat siyahısı**


1. Adıgözəlov K. Cənubi Qafqazda Azərbaycanın geosiyasi liderliyinin növbəti təsdiq// 525-ci qəzet. - 2022. - 4 noyabr. - № 202. - S. 8-9
2. Əliyev Q. Heydər Əliyev sayəsində Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrildi // 08.05. 2021 https://www.yeniazerbaycan.com/SonXeber_e83428_az.html
3. Hüseynova, İ. Heydər Əliyev və Qafqazda sülh prosesi, Bakı, Çaşoğlu, 2008, 672 s.
4. Səmədzadə Z. "Heydər Əliyev və Qafqazda sülh prosesi" Xalq qəzeti".-2010.-14 may.-N 103.-S.5.